Ədalət.- 2020.- 25 fevral.- S.4.

# Xocalını qan dənizində kimlər boğurdular?...

## (Şuşadan görünən Xocalı)



Əyyub Şırlanlı,
şair, AYB-nin üzvü, əməkdar müəllim,
Qarabağ müharibəsinin veteranı

*"Vətən əxlaqımız qüvvətli olmazsa, nə müstəqilliyimizi, nə azadlığımızı, nə də Vətənimizin bütövlüyünü qoruya bilmərik".*

*Ziya Göyalp*

Hörmətli oxucular, artıq Xocalının işğalından 28 il ötüb keçmişdir. Lakin el-obalarımıza qayıdacağımıza olan inamımızı itirməmişik:

**Ümidi qoymuram, puç olub gedə,**
**İçimdən kədəri, qəmi qovuram.**
**Sönmüş çıraqları yandırmaq üçün,**
**Gah alov oluram, gah od oluram.**

### Ötüb keçən bu illərdə

yurdlarımıza qayıda bilmədiyimizi görəndə isə bir-birimizdən soruşuruq:

**Bizim günahımız nədir görəsən,**
**Vətəndə Vətənə həsrət qalmışıq?!..**

Mən yazıda 1988-1992-ci illərdə Dağlıq Qarabağdakı hadisələrin canlı şahidi olaraq ermənilərin keçmiş Sovet Rusiyasına məxsus 366-cı motoatıcı alayın əsgər və zabitləri ilə birləşərək 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecədə Xocalı şəhərində azərbaycanlılara qarşı həyata keçirdikləri kütləvi insan qırğınından, viranələri fəryad qoparan, yana-yana kül içində qovrulan, lakin öz tarixi adını, məğrurluğunu qoruyub-saxlayan, öz doğma övladlarının yolunu gözləyən, qalxıb yenidən şöhrətlənəcək və tez bir zamanda düşməndən azad olunacaq bir Azərbaycan şəhərinin faciəsindən söz açacağam.

Bunlar nə əfsanədir, nə də nağıl, bunlar gözlərimizin qarşısında baş vermiş hadisələrdir. Bunların üstündən sükutla keçmək olmaz!

Xocalının işğalı hər gün gözlərimin önündən kinolenti kimi gəlib-keçir. 27 il bundan əvvəlki gecənin dəhşətli mənzərəsi Şuşanın "Cıdır düzü"ndən açıq-aydın görünürdü.

Sizdən nə gizlədim:

**Otuz ildir sinəm üstə dərd at çapır,**
**Ruhum bir an uzaqlaşmır Qarabağdan!**
**Şuşa, Laçın ayaq altda itib-batır,**
**Xəcalətəm şəhid şəhər Xocalıdan!**

Qeyd edək ki, Dağlıq Qarabağ və onun ətrafındakı ərazilərin, o cümlədən Xocalının işğalına H.Poqosyan, R.Koçaryan, Z.Movsesyan, B.Saakyan (hazırda qondarma rejimin rəhbəri), S.Sarkisyan, A.Seyranyan, Z.Balayan, M.Ovanesyan, A.Mankuçaryan və başqaları rəhbərlik etmişdir. Hətta S.Sarkisyan və R.Koçaryan hər ikisi Ermənistanın prezidenti olmuşdular. Onlar Avropanın mötəbər kürsülərindən Xocavəndin, Xocalının və Şuşanın işğalında şəxsən iştirak etdiklərini də dəfələrlə təkəbbürlə deməkdən çəkinməmişdilər.

### O gecə

xocalıların qanlı haraylarına cavab verə bilmirdik. Çünki Şuşadan Xocalıya gedən yolları Sovet Rusiyasına məxsus hərbiçilər və terrorçu ermənilər bağlamışdılar. Xocalıya kömək edə bilmirdik, çünki Şuşanın özü də taleyin ümidinə buraxılmışdır. Bizim səsimizi Allahdan başqa heç kəs eşitmirdi, əslində eşitmək istəmirdilər...

Evimiz Şuşanın "Cıdır düzü"nün on addımlığındadır. Burdan Dağlıq Qarabağın çox yerləri: Xocalı, Xan kəndi, Ağdam aşırımı, Quşçular, Malıbəyli, Daşbulaq, Canhəsən, Cəmilli, Çanaxçı, Şuşakənd, Qırmızı kənd, Həsənabad, Kərgicahan, "Topxana" meşəsi, Qarğar çayı, Şahbulağı və Əsgəran qalaları açıq-aydın görünür.

**Ermənilər və havadarları 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Azərbaycan xalqının qədim tarixi abidələrini, kurqanlarını (gor evlərini), yaşayış və mülki binalarını əsrlərlə öz köksündə qoruyub-saxlayan Xocalını-Dağlıq Qarabağın bir parçasını xarabalığa çevirirdilər, şəhəri və xocalıları qan dənizində boğurdular, XX əsrə öz şərəfsiz imzalarını atırdılar...**

**Nə gizlədim, qənşərdən görünən mənzərə, şahidi olduğum müdhiş gecə kişi qüruruma utanclıq gətirirdi. O gecə taleyin ümidinə buraxılmış ana və bacılarımıza, qardaşlarımıza, xəstə və qocalara, körpə uşaqlara kömək əli uzada bilmirdik.**

Xocalı şəhəri hər tərəfdən mühasirəyə alınmışdı. Keçmiş Sovet Rusiyasına məxsus 366-cı motoatıcı alayın və Ermənistanın təpədən dırnağa qədər silahlanmış işğalçı orduları tanklarla, BTR-lərlə, "PDM" və çoxsaylı hərb maşınları ilə Xocalının külünü göyə sovururdular. Yanan evlərin göylərə ucalan alovunun işığında hər şey açıq-aydın görünürdü. İnsanı qılınc kimi kəsən şaxtada çılpaq, ayaqyalın meşələrə, dağlara, dərələrə qaçan-imdad diləyən insanların səsləri, çığırtı və nalələri adamı dəlilik dərəcəsinə gətirirdi... Heyvanların bağırtısı, tükürpədici səslər dərələrdə əks-səda verirdi.

Həmin gecə həyasızlıq pasportu daşıyan, insanlıq hisslərindən çox uzaq düşmüş və qəddarlığın son həddinə yiyələnmiş ermənilər Xocalının bütün əhalisini amansızcasına qırırdılar. Mərmilərin bir göz qırpımında yandırıb bişirdiyi insan ətinin iyi çöllərə yayılmışdı. Bu hadisə əslində, azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı, Səlib yürüşü idi... Bu yürüş ermənilərin və havadarlarının yarımçıq qalmış (çar Rusiyası dönəmindən üzübəri) məkrli planlarının davamı olmaqla Azərbaycan ərazilərini yenidən işğal etmək, Dağlıq Qarabağı Ermənistana birləşdirmək, insanlarda erməni xofu yaratmaq məqsədi güdürdü.

Yəqin ki heç kəs düz sözdən inciməz. Həmin ərəfədə Azərbaycanda vəzifəni Vətəndən və xalqdan üstün tutan bir çox səlahiyyət sahibləri - Vətənin müdafiəsinə məsul şəxslər səslərini də çıxarmırdılar. Onlar Xocalıdan keçən yolun az bir zamanda Şuşadan, Laçından, Kəlbəcərdən və digər el-obalarımızdan keçəcəyini fikirləşmirdilər. Hər an işğala məruz qalacaq Xocalının müdafiəsi əliyalın xocalıların ümidinə qalmışdı.Nəticə göz qabağındadır.

### Xocalı soyqırımı

ilə bağlı cild-cild kitablar yazılıb, saysız-hesabsız tədbirlər keçirilib, sənədli filmlər çəkilib. Nə qədər ki Xocalı düşmənin işğalı altındadır bu mövzu gündəmdə olacaqdır.

**Biz öz tarximizi vaxtında özümüz yazmalıyıq. Baş vermiş hadisələrin üstündən sükutla keçmək özü bir faciə, millətə və xalqa, üstündə gəzdiyimiz Vətən torpağına hörmətsizlikdir. 1988-1992-ci illərin hadisələri ilə bağlı bir çox mətbu orqanlarda və qardaş Türkiyə mətbuatında mənim də az-çox yazılarım dərc olunub. 2019-cu il fevralın 26-da Bakıda və rayonlarımızda Xocalı soyqırımının 27-ci ili ilə əlaqədar Dövlət səviyyəsində 70 min nəfərdən çox vətəndaşlarımızın "Azadlıq meydan"ından "Ana fəryadı" abidəsinə qədər keçirilmiş möhtəşəm yürüş Dağlıq Qarabağın, o cümlədən Xocalının unudulmadığını, Azərbaycan xalqının monolit birliyini "sülh" və "demokratiya"dan dəm vuran aparıcı dövlətlərə, erməni faşizminə bir daha tanıtdı.**

### Bəri başdan qeyd edim ki,

bu yazıda (AMEA-nın əməkdaşı Şöhrət Sədimbəylinin "Bizim çoxlarımızın bilmədiyimiz həqiqətdir - Xocalı") adlı yazısındakı faktlardan istifadə olunmuşdur.

Gəlin sizlərlə birlikdə Xocalıda çoxlarımızın bilmədiyimiz həqiqətlərə biganə qalmayan, hadisələrin birbaşa iştirakçısı və Xan kəndi şəhərindəki keçmiş Sovet Rusiyasına məxsus 366-cı motoatıcı alayın (02270 mömrəli hərbi hissəsinin) əks-kəşfiyyat şöbəsinin rəisi podpolkovnik Vladimir Savelyevin erməni terror təşkilatı ilə Rusiya qoşun birləşmələrinin Dağlıq Qaabağda birgə həyata keçirdikləri hərbi əməliyyatı, Xocalını necə işğal etdiklərini izləyərək yazdığı faktlardan, habelə əldə etdiyi informasiyalardan bir neçəsinin şərhini və onun etirafını biz də yada salaq.

Xocalı faciəsinin ilk məlumatlarını toplayan, hadisələrin birbaşa iştirakçısı və şahidi olan polkovnik 1992-ci il noyabr ayının 26-da, 1994-cü il mart ayının 19-da, 1998-ci il avqust ayının 22-də və nəhayət, 2000-ci il iyul və dekabr aylarında BMT-yə, Avropa Şurasına..., daha sonra Baş Kəşfiyyat İdarəsinə "Məxfi arayış"ı təqdim edir. O, son arayışlarını "zabit Puqaçov" imzası ilə göndərib.

Polkovnik qeyd edir: "...Mən bütün bunları yazmaya bilmərəm. Hər şey gözlərimin önündə baş verib. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllələrdən keçmiş bədənlərini unuda bilmirəm. Qoy azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi.

Təkcə on doqquz səhifəlik məxfi arayışı həm Kremlə, həm MN-ə, həm də VKİ-nin generallarına göndərdim. Oxuyun, - dedim". O, sözünə davam edərək deyir ki, El Messanyan Qriqoryan Beyrutda çıxan "Zartunk" ("Oyanma") qəzetində "Bir erməni yardımı" yazısında qeyd edir: ...Xocalı uğrunda vuruşanları, döyüşə atılanları unutmaq, yaddan çıxarmaq biz ermənilərə yaraşan iş deyil. Onlara - o igidlərə yardım edin. Məlumatımız var ki, dünyanın 24 ölkəsində varlı və zəngin erməni iş adamları "Artsax yardım fondu" təsis ediblər. O fond həm də bizim gələcək nəsillərin taleyi üçündür... Londonda erməni iş adamı satdığı villasının dəyərini, Vaşinqton erməni bisnesmenu Araz Süleyman öz ticarət mərkəzindən gələn illik gəlirləri... Parisdə "Erməni ana dili cəmiyyəti"nin üzvləri topladıqları ianələri... Xocalı əhalisini kütləvi qıran qəhrəmanları üçün ayırdılar..."

1992-ci il 24 mart.

### Bakıda isə boş qalmış kreslolar

**üstündə adamlar dəstələrə bölünür, qruplarda cəmləşir, hakimiyyətə can atırdılar. Ali Baş Komandanın buraxdığı strateji səhvləri isə nə siyasi mühitdən ayrı düşmüş, başını itirmiş millət, nə də ayrı-ayrı siyasi liderlər dərk etmirdilər. Düşdükləri burulğandan çıxmaq üçün heç kəs bir-birinə əl boğulurdu, yardım etmirdi. Xocalı isə qan içində can verirdi. Ordudakı xəyanətlə Prezident Aparatındakı xəyanətlər üst-üstə düşdüyündən hamı çaşbaş qalmışdı. Bütün bu çaşqınları araşdıran kəşfiyyatçı V.Savelyev Kremlə üst-üstə 18 eyni məzmunlu 28 teleqram göndərir. Amma heç kəs onun teleqramını oxumurdu.**

1992-ci ilin fevral ayının 4-də isə Roma Papası II İohanın Dağlıq Qarabağı terror yuvasına çevirən ermənilərin və rus qoşun birləşmələrinin generallarına məxfi məktubu daxil olur.

Roma Papası erməni müdafiə dəstələrinə "Allahdan aldığı gücü" (?) göndərirdi. Ruslara isə bu vuruşmanın "dini bir vuruşma" olduğunu xatırladır, onlara dua edəcəyini açıqlayırdı.

Roma Papası Dağlıq Qarabağ uğrunda vuruşmanı "Dini vuruşma... Din uğrunda vuruşma" kimi qiymətləndirib, yazır: "...İmkan olarsa, Xocalıya gəlib orda həlak olan erməni qardaşlarımın vuruş və döyüş məkanlarında baş əyəcəm..." (2003-cü il sentyabrın 21-də Roma Papası Ermənistana gəlir, Qarabağın işğalı zamanı öldürülən ermənilərin məzarlarını yad edir). Polkovnik V.Savelyev daha sonra yazır: "...Xocalının işğalında ölüm və kütləvi qırğın hadisələrində azərbaycanlı zabitləri də günahlandırıb ittiham edirəm... Bu, necə Vətəndir? Bu, necə ordudur? ...Bütün bunları anlaya bilmirəm. Bu oyunlara rus zabitlərini qoşmaqla onları alçaldırlar, şərəfinə lənət damğası vururlar...

**Mən on addımlığımda güllə yarasından can verən səkkiz-doqquz yaşlı qızcığaza heç cür kömək əlimi uzada bilmirəm. Allahın mənə lənət edəcəyi gündən qorxuram..."**

Lənətlənmiş günlər isə bir-birini əzəv edir. Həmin ərəfədə Fransadan gəlmiş "Operator-II" özəl studiyasının erməni əməkdaşları isə (jül Barelyan, Şerin Sitaryan) Xocalı ətrafında qalaqlanmış azərbaycanlıların meyitlərinin yandırılmasını lentə köçürürdülər. Rusiyanın 2-ci batalyonunda vuruşan zabit İvan Karabelnikovun verdiyi məlumata görə bu yer "...Xocalının şimal-şərq hissəsində kiçik təpəcikləri olan bir yer idi..."

Xocalı faciəsini işıqlandırmaq (ermənilər buna qəhrəmanlıq deyirlər) üçün Xankəndiyə dünyanın 32 ölkəsindən 47 erməni jurnalisti gəlmişdir. Onların bir qismi polkovnik Y.Zarviqarovun ayırdığı zirehli maşınlarının gözlüklərindən qərargah mərkəzlərindəki hadisələri izləyir, qeydlər götürür, bəziləri də operativ çəkilişlər aparırdı. Dağılmış, viranə qalmış yerləri dünyaya göstərir və acı bir təəssüflə qeyd edirdilər: "...Azərbaycanlılar günahsız erməniləri qırırlar..."

### Əslində

isə onlar azərbaycanlılara qarşı şər və böhtan yağdırmaqdan əl çəkmirdilər...

Həmin ərəfədə bizim təbliğat maşınımız isə Prezident Aparatından kənara çıxmırdı. Bakıda adicə diplomatik korpusların nümayəndələrinə həqiqəti deməkdə çətinlik çəkirdik. Susmağımız isə erməni təbliğatına qol-qanad verirdi... Ermənilər Xocalı ilə bağlı Azərbaycanı "qan tökməkdə günahlandıran" bir materialı, əllərinə keçən hər hansı bir faktı və yaxud sənədi təkrar-təkrar çap edirdilər. Tutalım ki... "Azərbaycanlılar Xocalını yandırıb getdilər..." foto reportajını 49 dəfə dünya mətbuatında çap etdiriblər. Halbuki Xocalını yandırıb gedənlər ermənilər idi.

Xocalının işğal edilməsi planının strateji tərəflərini ermənilərlə yanaşı, ruslar da ... "çox düşünüblər".

**(ardı növbəti sayımızda)**